# (Yanına çatdıqda) dedik: “Sən bizim seyyidimizsən.” Dedi: “Seyyid Allahdır”. Biz dedik: "Sən bizim ən fəzilətlimiz və ən böyüyümüzsən". O, dedi: “Öz sözlərinizlə danışın, şeytan sizi (tərifdə həddi aşmağa) sürükləməsin

Abdullah bin Əş-Şixxirdən (Allah ondan razı olsun) belə dediyi rəvayət edilir: Bəni-Amir heyəti ilə Allah Rəsulunun (Allahın salavatı və salamı onun üzərinə olsun) hüzuruna yola düşdüm. (Yanına çatdıqda) dedik: “Sən bizim seyyidimizsən.” Dedi: “Seyyid Allahdır”. Biz dedik: "Sən bizim ən fəzilətlimiz və ən böyüyümüzsən". O, dedi: “Öz sözlərinizlə danışın, şeytan sizi (tərifdə həddi aşmağa) sürükləməsin.

[Səhih] [Əbu Davud, Əhməd rəvayət ediblər]

Bir dəstə Peyğəmbərin (Allahın salavatı və salamı onun üzərinə olsun) yanına gəlib ona çatdıqda - onu tərifləyərək- xoşuna gəlmədiyi bəzi sözlər dedilər.  "Sən bizim seyyidimizsən"- dedilər. Allah Rəsulu (Allahın salavatı və salamı onun üzərinə olsun) onlara dedi: "Seyyid-Allahdır" O, yaratdıqları üzərində tam hökmranlığa malikdir və onlar Onun qullarıdır.  Dedilər: Sən "bizim ən fəzilətlimiz” və dərəcə, şərəf və fərqlənmə baxımından ən üstünümüzsən. Sən bizim ən böyüyümüz, ən səxavətlimiz, ən uca və yüksək olanımızsan. Sonra Peyğəmbər (Allahın salavatı və salamı onun üzərinə olsun) onları adətən dedikləri kəlimələri söyləmələrinə, əlavə mükəlləfiyyətə-yük altına girməmələrinə, şeytanın onları şirk və onun vasitələrinə aparan mübaliğə (şişirtmə) və tərifləməyə sürükləməməsinə yönətdi.

https://sunnah.global/hadeeth/az/show/3389